## *HƏYAT BİLGİSİNİN TƏDRİSİ METODİKASI*

UOT 378.147: 502

***Səadət Teyfuq qızı Feyzullayeva***
*Azərbaycan Dövlət Universitetinin Şəki filialının baş müəllimi*

# HƏYAT BİLGİSİ FƏNNİNİN SINAQ DƏRSLƏRİNİN TƏŞKİLİ VƏ MÜŞAHİDƏLƏRİN APARILMASI MEYARLARI

***Сеадет Тейфуг гызы Фейзуллаева***
*преподаватель Шекинского филиала Азербайджанского Государственного Педагогического Университета*

# КРИТЕРИИ ПРОВЕДЕНИЯ НАБЛЮДЕНИЙ И ОРГАНИЗАЦИЯ ПРОВЕРОЧНЫХ УРОКОВ ПО ПРЕДМЕТУ ПОЗНАНИЕ МИРА

***Seadet Teyfuq Feyzullayeva***
*lecturer of the Sheki branch*
*of the Azerbaijan State Pedagogical University*

# OBSERVATION CRITERIA AND ORGANIZATION OF TESTING LESSONS ON THE SUBJECT OF KNOWLEDGE OF THE WORLD

**Xülasə.** Ali məktəblərin rəhbərliyi pedaqoji təcrübənin təşkilinə xüsusi diqqət yetirir. Müəllif Həyat bilgisi fənnindən sınaq dərslərinin təşkili və müşahidələrin aparılması üçün meyarlar təklif etmiş və onları cədvəlləşdirmişdir. Meyarlar beş qrupda təsnif edilmişdir. Cədvəldən istifadə tələbələr üçün praktik və əlverişlidir. Cədvəl şəkilində verilmiş meyarlar pedaqoji təcrübənin keyfiyyətinin yüksəldilməsinə kömək edir. Məqalədə həmçinin pandemiya dövründə və distant təhsil zamanı pedaqoji təcrübədə tətbiq edilmiş əməkdaşlıq metodunun üstünlüklərini təhlil edilir. Əməkdaşlıq metoduna xüsusi diqqət yetirilərək, onun mahiyyəti açıqlanılır.

***Açar sözlər:*** *pedaqoji təcrübə, Həyat bilgisi, sınaq dərsləri, bacarıqlar, meyarlar, müşahidələr, distant təhsil, "əməkdaşlıq" metodu.*

**Резюме.** Особое внимание руководство высших учебных заведений уделяет организации педагогической практики. Автор предлагает таблицы и критерии для проведения проверочных уроков и наблюдений по предмету «Познание мира». Критерии классифицированы по пяти группам. Использование этих критерий в виде таблицы практична и удобна для студентов. Это создает условия для повышения качества педагогической практики. В статье также анализируется преимущества метода сотрудничества в условиях пандемии и дистанционного обучения в педагогической практике. Особое внимание уделяется сущности метода сотрудничества и раскрывается его значение.

***Ключевые слова:*** *педагогическая практика, Познание мира, проверочные уроки, умения, критерии, наблюдения, дистанционное обучение, метод «сотрудничества»*

**Summary.** The leadership of universities pays special attention to the organization of pedagogical practice. Author offered requirements for organizations and observation of Life science course in a form of table. The criteria are divided into five groups. The use of the table is practical and convenient for students. This creates conditions for increasing quality of pedagogical experience. Article also analyses partnership method's importance in the condition of distant education and pandemic. Particular attention is paid to the essence of the partnership method's, reveals their meaning .

***Key words:*** *Pedagogical exerpice, "Life sicience", experimental lessons, abilities, criterion, observation, distant education, method of "partnership"*

Pedaqoji təcrübələrin mütəşəkkil təşkili inkişaf etməkdə olan Azərbaycan Respublikasında Təhsil sahəsində aparılan kadr siyasətinin tərkib hissəsinə daxildir. Son illər qloballaşma və dünya təhsil sisteminə inteqrasiya ilə əlaqədar olaraq bu sahədə islahatlar daha da genişləndirilmişdir. Dövlətimizin siyasi quruluşunun demokratik cəmiyyət quruculuğuna keçməsi yeni cəmiyyətə müvafiq təhsil sisteminin yaradılmasına səbəb olmuşdur (1, 130).

Müasir dövrdə təhsilin və tərbiyənin funksiyası artdığından, mürəkkəbləşdiyindən, pedaqoji kadrlara verilən tələblər də daima yenilənir. Bu günki tələbə gələcək müəllimdir və o, cəmiyyətin həyatında böyük rola malikdir. Ulu öndər H.Ə. Əliyevin dediyi kimi: "Əgər müəllim olmasa heç birimiz cəmiyyətdə tutduğumuz yeri tuta bilməz və fəaliyyət göstərə bilmərik". Bu gün ilk sınaq dərslərinə qoşulan tələbə bu məsuliyyəti dərk etməlidir. Müasir kompetensiyalar dayanmadan dəyişir və bu səbəbdən ali məktəblərdə pedaqoji təcrübələrə verilən tələblər də yenilənir.

Pedaqoji təcrübənin qarşısında duran vəzifələri aşağıdakı kimi konkretləşdirə bilərik:

- ✓ Tələbələrdə müəllimlik peşəsinə hörmət və məhəbbət tərbiyə etmək;
- ✓ Ali məktəbdə təhsil illərində tələbələrin pedaqogika, psixologiya, metodika, ixtisasla bağlı qazandıqları nəzəri bilikləri tətbiq etmək və yoxlamaq (2, s. 380)

Pedaqoji təcrübəyə başlayan "İbtidai sinif müəllimliyi" ixtisası üzrə təhsil alan hər bir tələbə Dövlət Standartı sənədi ilə tanış olmalı, buraya edilən əlavələri səriştələr və ümumi təhsilin təşkilinə dair ümumi pedaqoji tələbləri, təlimin prinsiplərini, ibtidai sinif müəllimlərinə verilən pedaqoji tələbləri, fənn kurikulumunda "Həyat bilgisi"nin tədrisinə verilən tələbləri bilməlidir. Həyat bilgisi fənninin tədrisinin dünya standartlarına cavab verən istiqamətləri fənn kurikulumunda çox aydın əsaslandırılmışdır( 3, s. 5-16). H. Hacıyeva, S. Bağırovanın "İbtidai siniflərdə həyat bilgisinin rollu oyun texnologiyaları ilə tədrisi metodikası" tərtib etdiyi dərs vəsaitində Həyat bilgisinin tədrisinə verilən tələblər dəqiq şəkildə tanış olmaq mümkündür. Sözügedən meyarların təşkilində həmin dərs vəsaitindən də istifadə edilmişdir.

Onu da qeyd etmək yerinə düşər ki, əvvəllər ədəbiyyatda pedaqoji prosesin təşkilinə verilən tələblər və ya təlimin təşkilinə verilən tələblər kimi öyrəndiyimiz ifadələr dəyişərək hazırda ümumi təhsilin təşkilinə dair ümumi pedaqoji tələblər kimi ifadə olunur. *Əvvəllər müəyyən olunan 6 prinsipə əlavələr olunaraq 9-a çatdırılıb:* pedaqoji prosesin tamlığı, təhsildə bərabər imkanların yaradılması, şagirdyönlük, inkişafyönlük, fəaliyyətin stimullaşdırılması, dəstək-ləyici mühitin yaradılması, şəxsiyyətyönlülük, inklüziv, məktəb-valideyn əlaqələrinin tənzimlənməsi.

Yuxarıda sadalananlar həm də kurikulumun prinsipləridir.

Onu da qeyd edək ki, təcrübəçi tələbə yenilənən səriştələrə də bələd olmalıdır. Ümumi təhsil pilləsində təhsilalanlarda formalaşdırılan səriştələr uc qrupda təsnif edilib: ***təfəkkürlə bağlı*** – yaradıcılıq, tənqidi təfəkkür, problemi həll etmək, qərar qəbul etmə və müstəqil öyrənmə, ***fəaliyyətlə bağlı*** – ünsiyyət, əməkdaşlıq, rəqəmsal savadlılıq, informasiya savadlılığı, maliyyə savadlılığı, ***dəyərlər*** - milli kimliyin dərki, milli iftixar hissi, fəal vətəndaş mövqeyi, şəxsi və sosial məsuliyyət, demokratiya və insan hüquqlarına hörmət, mədəni müxtəlifliyə hörmət.

Pedaqoji təcrübəyə başlayan tələbə sınaq dərsini reallaşdırmaq üçün öz fəaliyyətini cədvəl 1-də göstərilən ardıcıllığa müvafiq təşkil etməlidir.

| | **Sınaq dərslərinin təşkili ardıcıllığı** |
|---|---|
| **I** | **Sınaq dərsinin hazırlıq mərhələsi üçün** |
| 11. | Təcrübənin giriş konfransında iştirak edərək təlimatlara diqqətlə qulaq asmaq, təhkim olunduğu sinif otağı, dərs cədvəli ilə tanış olmaq. |
| 12. | Sınaq dərsinin vaxtını götürərək həmin tarixdəki mövzunu müəyyən etmək. |
| 13. | Dərsə hazırlıq məqsədilə carı planlaşdırmanın tərtib edilməsi, icmalın yazılması və fənn metodisti tərəfindən təsdiqlənməsi, dərs resurslarının müəyyən edilməsi və hazır vəziyyətə gətirilməsi. |

| | |
|---|---|
| **II** | **Sınaq dərsinin təşkili** |
| **III** | **Sınaq dərsindən sonra** |
| 31. | Sınaq dərsindən sonra müzakirələrdə iştirak etmək |
| 32. | Qeyd edilən nöqsanların təkrarlanmaması üçün onların qeydiyyatını aparmaq və ya yadda saxlamaq. |
| 33. | Qiymətləndirməni eşitdikdən sonra sənədləri (jurnalda icmal, protokol hissə, slayd, lazım olduqda çəkilişin videosu, tapşırıq vərəqləri, istifadə olunan və tələbə tərəfindən hazırlanan vəsaitlər və s.) təhvil vermək. |

| | **Sınaq dərsinin fənn kurikulumunun tələblərinə müvafiq təşkili və müşahidələrin aparılması üçün lazım olan meyarlar** | **1-ci Dərs** | **2-ci d.** |
|---|---|---|---|
| **I** | **Dərsin planlaşdırılması** | | |
| 11. | Müəllim mövzunun fənn planına əsasən müəyyən edib. | | |
| 12. | Müəllim carı planlaşdırmanı tərtib edib. | | |
| 13. | Müəllim dərsin mövzu və vaxtını nəzərə alaraq fəal dərsin mərhələlərinin ardıcıllığına uyğun planlaşdırıb. | | |
| 14. | Müəllim təlimin keyfiyyətini yüksəltmək üçün müxtəlif və müvafiq təlim metodları seçib. | | |
| 15. | Müəllim sinfin psixoloji mühiti, şəraiti, şagirdlərin sayına, metodlara uyğun təlim priyomları( tərzləri) müəyyən edib. | | |
| 16. | Müəllim şagirdləri əvvəlcədən müəyyən etdiyi təlim məqsədləri ilə tanış edib. | | |
| 17. | Müəllim mövzuya, məqsədə və sinfə uyğun qiymətləndirmə üsulları seçib. | | |
| 18. | Müəllim standartları seçərkən mövzuya uyğunluq və müvafiq fəaliyyət xətləri ilə əlaqəlilik nəzərə alınıb. | | |
| 19. | Müəllim sınaq dərsinin mövzusuna uyğun inteqrasiya imkanlarını nəzərə alıb. | | |
| 110. | Müəllim mövzu və standarta müvafiq olaraq məqsədləri müəyyən edib. | | |
| **II** | **Sinfin təşkili və idarə olunması** | | |
| 21. | Müəllim öyrədici mühitin səmərəliliyini artırmaq üçün sinfi təşkil etmişdir. | | |
| 22. | Müəllim tədris vaxtından səmərəli istifadə etmişdir. | | |
| 23. | Müəllim şagirdləri maraqlandırmağı bacarmış, onları yüksək səviyyədə dərsə cəlb etmişdir. | | |
| 24. | Müəllim şagirdlərin fəaliyyətinə diqqəti bərabər paylayaraq nəzarət etmişdir. | | |
| 25. | Müəllim fəallığı sona qədər saxlamağı bacarmışdır. | | |
| **III** | **Tədris strategiyaları** | | |
| 31. | Müəllim fənn üzrə məzmun xətlərinə, əsas və alt standartlara, fəaliyyət xətləri haqqında biliyə malik olduğunu nümayiş etdirmişdir. | | |

| | | | |
|---|---|---|---|
| 32. | Müəllim mövzu ilə bağlı lazımi biliyə malikdir(akademik qabiliyyət). | | |
| 33. | Müəllim dərsin mərhələlərini ardıcıl və lazımi vaxt çərçivəsində əməl etdi. | | |
| 34. | Müəllim interaktiv metodlardan səmərəli şəkildə istifadə etdi. | | |
| 35. | Müəllim tədris resurslarından (yazılı, əyani resurs, sxem, qrafik, şəkil, obyektlər, modellər, herbarilər, canlı obyektlər, mulyajlar, video kasetlər, audio materiallar, İKT, kompüter proqramları, televiziya proqramları, youtube materialları və s.) səmərəli istifadə etdi (dəstəkləyici mühit prinsipi). | | |
| 36. | Müəllim inkişafetdirici və öyrədici təlim mühiti qurmağı bacardı. | | |
| 37. | Müəllim şagirdlərə fərdi yanaşdı və onlar arasındakı fərqləri nəzərə aldı (şagirdyönlülük prinsipi). | | |
| 38. | Müəllim şagirdlərin diqqətinə onların daha yüksək nəticələrə qadir olduqlarını çatdırdı. | | |
| 39. | Müəllim təfəkkürün ən azı iki növünü – (məntiqi, tənqidi, yaradıcı) fəallaşdırmağı bacardı. | | |
| 310. | Müəllim gözlənilməyən vəziyyətlərdən çıxarmağı bacardı. (Nəzərdə tutulanlara mane olacaq səbəb olduqda vəziyyətdən çıxarmaq üçün ehtiyat variant) | | |
| 311. | Müəllim şagirdləri problemləri müstəqil həll etməyə sövq etdi. | | |
| 312. | Müəllim dərsin hər üç vəzifəsini (öyrədici, inkişafetdirici, tərbiyəvi) əlaqəli şəkildə reallaşdırdı.<br>Başqa sözlə tamlıq prinsipinə əməl etdi. | | |
| 313. | Müəllim biliyin uzunömürlülyü, davamlılığı üçün( yəni artıq öyrəndikləri bilik özündən sonra digər yeni biliklərin mənilmsənilməsi ehtiyacının yaratması) təkrar və digər priyomlardan, səbəb – nəticə əlaqələrindən səmərəli istifadə etdi. | | |
| 314. | Müəllim diferensial, maraqlı, aydın, mövzuya, şagirdlərin yaşına, təlimin məqsədlərinə uyğun tapşırıqlar verdi. | | |
| 315. | Müəllim milli və mənəvi dəyərlərin formalaşdırılmasını diqqət mərkəzində saxladı. | | |
| 316. | Müəllim rəqəmsal savadlılığa malik idi. | | |
| 317. | Müəllim yüksək pedaqoji təxəyyülə malik idi. O, şagirdin hansı keyfiyyətinin inkişaf etdirməyin mümkün olduğunu görür və onu istiqamətləndirdi. | | |
| **IV** | **Müəllim- şagird əlaqəsi** | | |
| 41. | Müəllim səmərəli motivasiya quraraq marağı oyatmağı bacardı. | | |
| 42. | Müəllim aydın, səlis, ifadəli, məzmunlu danışırdı. | | |
| 43. | Müəllim aydın, düzgün yazırdı. | | |
| 44. | Müəllim əks əlaqəni yerində, vaxtında və konstruktiv yaratdı. | | |
| 45. | Müəllim dərsi həyatla əlaqələndirdi. | | |
| 46. | Müəllim aktyorluq bacarıqlarından istifadə etdi. | | |
| 47. | Müəllim müsbət psixoloji mühit yaratmaq məqsədilə yumor, nəzakətli ifadələr, rəğbətləndirici ifadələr, şeirlər, mahnılardan və s. dən səmərəli istifadə etdi | | |
| 48. | Müəllim lazımi məqamlarda empatiya nümayiş etdirdi. | | |
| 49. | Müəllim sorğu – sual texnikalarından öyrətmək, yoxlamaq, əlaqələndirmək, istiqamətləndirmək və s. Məqsədlər üçün səmərəli istifadə etdi. | | |

| | | | |
|---|---|---|---|
| 410. | Müəllim şagirdlər arasında əməkdaşlıq mühitinin yaradılmasına nail oldu. | | |
| 411. | Müəllim şagirdlərin dərketmə imkanları, inklüzivliyi, həmçinin sinfin ümumi psixoloji və əşyavi mühitini nəzərə aldı(bərabər imkanların yaradılması prinsipi) | | |
| 412. | Müəllim şagirdlərlə birlikdə ümumiləşmə apardı və nəticə çıxardı. | | |
| **V** | **Şagirdlərin fəaliyyətinin qiymətləndirilməsi** | | |
| 51. | Müəllim refleksiyadan istifadə etmişdir. | | |
| 52. | Müəllim müvafiq formativ və summativ qiymətləndirmə texnikalarından istifadə etmişdir. | | |
| 53. | Müəllim qiymətləndirmə meyarlarını məqsədlərə uyğun müəyyən etmişdir. | | |
| 54. | Müəllim ev, sinif tapşırıqları ilə bağlı vaxtında lazımi rəylər söyləmişdir. | | |
| 55. | Müəllim şagirdlərin qiymətləri, nəticələri ilə həm onları həm də valideynləri bu və ya digər formada tanış etmişdir( gündəliyə qeydlər və s. formada) | | |
| 56. | Müəllim şagirdlərin fəaliyyətini sənədləşdirən qeydlər saxlayırdı. | | |
| 57. | Müəllim nəzakətli, mehriban və tələbkar idi (suqqestiv qabiliyyətlər). | | |

***Cədvəl 2. Həyat bilgisi dərslərinə hazırlıq və müşahidələrin aparılması üzrə meyarlar.***

n meyarları cədvəl 2-də verilmişdir. Sınaq dərslərinə hazırlıq zamanı hər sütunun qarşısına pozulan qələmlə + və ya – yazmaqla hərə öz hazırlıq səviyyəsini müəyyən edə bilər. Yuxarıda cədvəldə verilən meyarları səviyyələr üzrə də təkmilləşdirmək olar. Bu zaman aşağı, orta, yüksək, çox yüksək olaraq 4 səviyyə müəyyən edə bilərik. Məsələn: tələbə fəal təlim metodl-arından yüksək səviyyədə istifadə edibsə yüksək səviyyə xanasına + işarəsi yazmaq olar. Müşahidələrin aparılması zamanı isə 10 ballıq qiymətləndirmədən istifadə edərək, sonda yekun qiymət yazmaq məqsədəuyğun olar. Kredit sistemində 10 ballıq qiymətləndirmənin meyarları qrup jurnallarında da verilir.

F.N. İbrahimov (4,184-187), M.İ. İlyasov (1,94-97), F.A. Rüstəmov və digərləri tərəfindən ibtidai sinif müəllimlərinin pedaqoji qabiliyyətləri qruplaşdıraraq oxuculara təqdim edilib. F.N. İbrahimov müəllimin qabiliyyətlərini 12 qrupda təsnif etmişdir(4,184-187). Həmin tədqiqatçıların əsərlərindən faydalanaraq meyarları təkmilləşdirmək olar. S. Axundovanın ibtidai sinif müəllimlərinin hazırlığı üçün təklif etdiyi pedaqoji qabiliyyətlərə isə aşağıdakılar daxil edilmişdir: ekspressiv, didaktiv, avtoritar, elmi-pedaqoji, perspektiv, kommunikativ, təşkilati, major, diqqətin mərkəzləşdirilləsi, qnostik, konstruktiv (5,236-237).

Ali məktəb müəllimləri və tələbələri pandemiya şəraitində onlayn pedaqoji təcrübənin təşkili zamanı bir çox çətinliklərlə qarşılaşdılar. Xəstəlik səbəbindən davamiyyətin pozulması, zəif internet təminatı, insanların gərgin psixoloji durumu və s. fəaliyyətimizə mənfi təsir edə bilərdi. Odur ki, təlim forma və metodlarının təkmilləşdirilməsi zərurəti yarandı. Ancaq 4 il ali məktəbdə öyrəndiklərini tətbiq etmək arzusunda olan tələbələrimiz istəyini nəzərə alaraq ADPU-nun Şəki filialında 2020-2021-ci tədris ilinin pedaqoji təcrübəsi zamanı əməkdaşlıq təcrübəsindən istifadə edildi. Bu zaman sınaq dərsini aparan təcrübəçi tələbənin sinif şagirdlərini öz qrup yoldaşları əvəz etdi. Dərslər video qeydə alınıb. Bu bir tərəfdən tələbələrə və biz müəllimlərə sonradan dərslərə baxdıqda nöqsanlarımızı daha aydın görmək imkanı verir. Burada digər müsbət tərəf ondan ibarətdir ki, ənənəvi sınaq dərsləri zamanı bir neçə tələbə dərsləri müşahidə etdiyi halda bu metoddan daha çox tələbə faydalana bildi. Çünki daha çox tələbə sınaq dərslərinə qoşulduğundan üstün və çatışmayan cəhətləri daha asan görür, gələcək fəaliyyətində bunları nəzərə alırdı. Belə əməkdaşlıq çox faydalı oldu.

Bir-birindən öyrənmə əməkdaşlıq və yaradıcılığın artması üçün geniş imkanlar yaratmış oldu. Nəticədə, təcrübəçi tələbələrin böyük hissəsi yüksək səviyyədə sınaq dərsləri təqdim etdilər. Böyük qələbə sevinci yaşayan tələbələrimizin coşqusu, vətənpərvər ruhu, müəllimlik peşəsinə marağı bizim sınaq dərslərində öz əksini tapdı. Bunun bir səbəbi də birgə görülən işin yaratdığı müsbət psixoloji mühit idi. Bu isə öyrədici mühitin dinamikasına müsbət təsir etmiş oldu.

**Problemin aktuallığı.** Ali məktəblərdə pedaqoji təcrübənin keyfiyyətinin yüksəldilməsi məqsədilə praktik əhəmiyyətə malik və tələbələr tərəfindən istifadəsi əlverişli vasitələrin tərtib edilməsi aktual məsələ olaraq qalmaqdadır.

**Problemin yeniliyi**. Ali məktəblərdə pedaqoji təcrübə zamanı Həyat bilgisi fənni üzrə sınaq dərslərinin təşkilinin nəzərdən keçirilməsi, mühüm məsələ kimi əsaslandırılması, həmçinin sınaq dərslərinin təşkili və müşahidəsi üçün meyarların təkmilləşdirilməsi, əməkdaşlıq metodunun xüsusi təlim şəraitində üstünlüklərinin əsaslandırılması.

**Problemi praktik yeniliyi**. Həyat bilgisi fənninin sınaq dərslərinin təşkili və müşahidələrin aparılması həmçinin qiymətləndirilməsi zamanı cədvəl formasında verilmiş meyarlardan istifadə edərək tələbələrə kömək göstərməklə, pedaqoji təcrübənin keyfiyyətinin yüksəldilməsi və əməkdaşlıq metodunun tətbiqi ilə bağlı təcrübəmizi paylaşmaqdır.

## Ədəbiyyat:

1. İlyasov, M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. *Monoqrafiya*. Bakı: Elm və təhsil, 2018, 130 s.
2. Rüstəmov, F.A., Dadaşova, T.Y. Ali məktəb pedaqogikası: Magistratura pilləsi üçün dərslik. Bakı: Nurlan, 2007, -380 s.
3. Hacıyeva, H.M, Bağırova S.M. İbtidai siniflərdə həyat bilgisinin rollu oyun texnologiyaları ilə tədrisi metodikası: Metodik vəsait. Bakı: Poliqrafiya, 2019, 5-16 s.
4. İbrahimov, F.N., Hüseynzadə, R.L. Pedaqogika: *Dərslik.* 2 cilddə, -Bakı: Mütərcim, - 2014. 184-187 s.
5. Axundova, S. İbtidai sinif müəllimi hazırlığı // Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, - 2016, № 2, 236-237 s.

**E-mail:** feyzullayeva_seadet@mail.ru
**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* **F.N. İbrahimov**
*ped.ü.fəls. dok., dos.* **S.R. Bədiyev**
**Redaksiyaya daxil olub:** 29.09.2021